XALQ QƏZETİ 1 sentyabr 2019-cu il, bazar

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 373** **Bakı şəhəri, 28 avqust 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları"nda və 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209; 2002, № 3, maddə 148, № 10, maddə 635; 2005, № 7, maddə 678; 2006, № 5, maddə 472, № 10, maddə 902; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1360; 2014, № 12, maddə 1662; 2017, № 12 (II kitab), maddə 2526; 2018, № 12 (II kitab), maddə 2737) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin FORMALARI"nda aşağıdakı dəyişiklik edilsin:

1.1. 1-8 nömrəli əlavələrdə "kargüzar" sözü "mütəxəssis (kargüzar)" sözləri ilə əvəz edilsin;

1.2. 7 nömrəli əlavə üzrə:

1.2.1. 11-ci bənd aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 11 | Ər-arvadın "___" ___________________ 20___ il tarixli birgə ərizəsi |
| | Nikahın pozulması haqqında ______________________ rayon (şəhər) məhkəməsinin "___" ____________ 20___ il tarixli ____________ nömrəli qətnaməsi.<br>Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ____________ 20___ il<br>18 yaşa qədər ümumi uşaqlarının sayı ________ |
| | Ərin (arvadın) xəbərsiz itkin düşmüş, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə __________ rayon (şəhər) məhkəməsinin<br>"___" ____________ 20___ il tarixli ____________ nömrəli qətnaməsi.<br>Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ____________ 20___ il |

1.3. 14 nömrəli əlavə üzrə:

1.3.1. mətndən "Vətəndaş" sözü (hər üç halda) çıxarılsın;

1.3.2. "ilə olan nikah ləğv edilmişdir, bu barədə nikahın ləğv edilməsi" sözləri "nikahı __________
___________________________________
(onların razılığına, ərin (arvadın) ərizəsinə, nikahın pozulması haqqında qətnamə
______________________________________əsasən pozulmuşdur.
*çıxarmış məhkəmənin adı və qətnamənin çıxarıldığı tarix)*
Nikaha "___"___________ 20__ il tarixində xitam verilmişdir.
Bu barədə nikahın pozulması" sözləri ilə əvəz edilsin;

1.3.3. "ləğv olunandan" sözləri "pozulduqdan" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddələr 2525, 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 5.9.5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.9.6-cı yarımbənd əlavə edilsin:

"5.9.6. məhkəmənin qətnaməsi əsasında nikahın pozulması qeydə alınarkən, nikahın pozulması haqqında akt qeydində və şəhadətnamədə nikaha xitam verilmə tarixi kimi məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün göstərilir.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***